*Mən bir daha demək istəyirəm ki, Tərtərdə pambıqçılıqda əldə edilmiş təcrübə öyrənilməlidir. Doğrudan da, çox böyük işlər görülübdür, özü də nəzərə almalıyıq ki, bu, düşmənlə üz-üzə yerləşən rayondur və tərtərlilər həmişə öz qəhrəmanlıqlarını, vətənə bağlılıqlarını göstərmişlər. Belə ağır vəziyyətdə işləmək və yüksək nəticələr əldə etmək, doğrudan da, yüksək qiymətə layiqdir.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Tərtərdə bir yaz günü



Baharın, bax belə, nazlı-qəmzəli vaxtında yolumuz Tərtərin cəbhə xəttində yerləşən Yuxarı Qapanlı kəndinə düşdü. Erməni tərəfi elə bir gün olmur ki, bu ərazidə atəşkəs rejimini pozmasın, dinc əhaliyə güllə atmasın. Ancaq bu təhlükə yerli əhalinin əlini işdən soyutmur. Onlar ayaqlarını doğulub böyüdükləri bu torpağa daha möhkəm dirəyir, əkir-becərir, özlərinə gün-güzaran qurur, sabaha inam və ümidlə baxırlar.

Prezident İlham Əliyevin Tərtərə hər səfəri rayon tarixinə, sakinlərin yaddaşına ən unudulmaz hadisələr kimi yazılır, növbəti uğurlar üçün önəmli stimula və ciddi təkana çevrilir. Dövlət başçısının rayona bugünlərdəki səfəri də tərtərlilərin böyük sevincinə, ruh yüksəkliyinə səbəb olmuşdur. Ölkə rəhbərinin keçirdiyi görüş və söhbətlər, verdiyi göstəriş və tövsiyələr cəbhə bölgəsinin əhalisində qurub-yaratmaq əzmini daha da yüksəltmiş, sabaha olan inamı bir az da artırmışdır. Səfərin səhərisi günü rayonun müxtəlif ünvanlarında zəhmət adamları ilə görüş və söhbərlərimiz də bu əlamətdar hadisənin xoş təsiri altında keçdi.

Suliddin Ələkbərovun əkin sahələri, örüş yerləri də düşmənlə üz-üzədir, gülləçatan məsafədədir. Dəfələrlə bu yerlərdə kənd sakinləri düşmən atəşinə tuş gəliblər – ölənlər, yaralananlar olub. Ancaq qapanlılar heç vaxt qorxub geri çəkilmirlər. Əksinə, silahlı qüvvələrimiz düşmənin layiqli cavabını veriblər. Qabaqcıl fermerlərlə də elə burada – pambıq əkini sahələrində görüşdük.

***– Narahatlıq, təhlükə yoxdur ki? İşlər necə gedir?***

– Əslində, təhlükə hər gün var. Düşmənə bel bağlamaq olmaz, namərd elə namərddir. Ancaq bu, bizim əlimizi-qolumuzu işdən soyuda bilməz. Çörəyimiz, dolanışığımız bax, bu çöllərdən çıxır. Taxılımızı da, tərəvəz-meyvəmizi də, ətimizi-yağımızı da özümüz istehsal edirik. Bu il havalar pambıqçılıq üçün çox əlverişli keçir. 41 hektarda səpin aparmışıq. Gördüyünüz kimi, yaxşı çıxış alınıb. Artıq ilk becərmə tədbirlərinə başlamışıq. Qərara gəlmişik ki, bu il hər hektarın məhsuldarlığını, ən azı, 40 sentnerə çatdıraq.

Fazil Vəliyev Bəyimsarov kəndində yaşayır. Artıq neçə ildir ki, dalbadal rayon üzrə ən yüksək məhsuldarlığa nail olur – hər hektardan 59 sentner pambıq əldə edir. Bəs bu il vəziyyət necədir?

Təcrübəli fermer həvəslə danışır:

– Əvvəlcədən onu bildirim ki, keçən ilə nisbətən pambıq əkini sahələrini artıraraq 46 hektara çatdırmışıq. Səpini optimal müddətdə başa çatırdıq. Sahələrdə normal çıxış alınıb. Bu isə gələcək bol məhsul üçün əsas şərtdir. Hədəfimiz belədir: hər hektardan 50 sentner "ağ qızıl" götürmək.

Yolumuz Qaradağlı kəndinədir. Hamı çöldə-bayırda, iş üstündədir. Başqa yol yoxdur. Kənd adamı yaxşı bilir ki, gələcək bol məhsulun əsası bu günlərdə qoyulur. Vaxtında, kefiyyətlə aparılan suvarma, becərmə tədbirlərindən çox şey asılıdır. Onlardan biri – İlkin Qurbanovla müsahib olub öyrəndik ki, qabaqcıl fermer bu il 70 hektarda pambıq əkib-becərir. Məqsədi bu mövsümdə hər hektarın məhsuldarlığını 51 sentnerə çatdırmaqdır.

Yolumuz haraya, hansı kəndə düşürsə, bax beləcə, hamını tarlada, iş üstündə, əkində-biçində gördük. Bu isə o deməkdir ki, il uğurlu gəlib, məhsul bol olacaq, gün-güzəran daha da yaxşılacaq. Yeri gəlmişkən, rayonda iqtisadiyyatın dinamik inkişafını əks etdirən bəzi rəqəmləri xatırlatmaq istəyirik.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərman və sərəncamlarına, tapşırıq və tövsiyyələrinə uyğun olaraq, ölkəmizdə olduğu kimi, Tərtərdə də sahibkarlığın daha da inkişaf etdirilməsi məqsədi ilə bütün sahələri əhatə edən geniş tədbirlər həyata keçirilmişdir. Əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də rayon icra hakimiyyətində sahibkarlarla görüşlər keçirilmiş, onları narahat edən problemlər öyrənilmiş, fəaliyyətlərinin genişləndirilməsi məqsədi ilə iş adamlarına lazımı köməklik göstərilmiş və lazımı tövsiyyələr verilmişdir. Bu da müsbət nəticələrini vermişdir. Rayonda kənd təsərrüfatı məhsullarının 99 faizi, sənaye məhsullarının isə 27 faizi özəl sektorda istehsal olunmuşdur. Əhaliyə göstərilən nəqliyyat, ticarət, ictimai iaşə və məişət xidməti bütövlükdə sahibkarlar tərəfindən həyata keçirilmişdir.

Ötən il bütün imkan və ehtiyat mənbələrdən səmərəli istifadə edildiyindən aqrar sektorun inkişaf etdirilməsi sahəsində məqsədyönlü işlər görülmüşdür. Bunun nəticəsi olaraq, 2019-cu ildə kənd təsərrüfatı məhsulunun ümumi həcmi 72 milyon 361,3 min manat təşkil etmiş, əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,5 faiz artmışdır. Pambıqçılığın daha da inkişaf etdirilməsi məqsədi ilə imkan və ehtiyat mənbələrindən səmərəli istifadə olunduğu, aqrotexniki qaydalara düzgün əməl edildiyi üçün 3 min 427 hektar sahədən emal müəssisələrinə 11 min 936 ton pambıq təhvil verilmişdir. Hər hektardan orta məhsuldarlıq rayon üzrə 34,8 sentnerə çatdırılmışdır. Sevindirici haldır ki, pambığın məhsuldarlığına görə rayon ölkədə birinci yerdədir.

Biz bu yazıda, əsasən, kənddə işlərin gedişindən, təsərrüfat qayğılarından, fermerlərin, kənd adamlarının arzu və düşüncələrindən danışdıq. Onu da əlavə edək ki, son vaxtlar rayonda həyatın bütün sahələrində ciddi canlanma və irəliləyiş əldə edilmişdir. Tikinti-abadlıq və quruculuq tədbirləri daha ardıcıl və sistemli xarakter almışdır. Bu gün Tərtərdə canlanma, irəliləyiş və yüksəliş bütün sahələri əhatə edir.

***İlin bu çağlarında adamın ürəyi təbiət istəyir. Ana torpaq, elə bil ki, dil açıb danışır. Güllər, çiçəklər min bir rəngə boyanır, quşlar, sanki, bu gözəlliyi vəsf edirmiş kimi nəğmə oxuyur. Taxıl zəmiləri, pambıq tarlaları, bağ-bostanlar günəşlə yanaşı, insan nəfəsi ilə də isinir, cana gəlir. Dağlara çıxmaq, düzlərə, dərələrə, meşələrə doyunca baxmaq, güllərin, çiçəklərin ətri hopmuş sərin dağ havası ilə nəfəs almaq, bulaq başına enmək, bu mənzərədən, gözəllikdən zövq almaq istəyirsən.***







***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***